

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 iyun 2022-ci il №46 (2657) https://mod.gov.az Qiymətı 30 qəpik


## "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Sizi - "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram.

Bir il əvvəl - 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir.

Şuşa Bəyannaməsinin Azərbaycan xalqı və dövləti üçün əlamətdar tarix olan 15 İyun - Milli Qurtuluş Günündə imzalanmasının və bir il sonra bununla bağlı beynəlxalq konfransın təşkil olunmasının rəmzi xarakteri, mənəvi önəmi də vardır. İki qardaş ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi Türk dünyasının parlaq şəxsiyyətləri - "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyən Mustafa Kamal Atatürkün və "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" deyən Heydər Əliyevin irsinə sadiqliyin ifadəsi, gələcək nəsillər üçün örnəkdir.

Şuşa Bəyannaməsi çoxşaxəli münasibətlərimizin ən yüksək zirvədə olduğunu göstərən mühüm sənəddir.

Qars müqaviləsindən 100 il sonra imzalanmış Şuşa Bəyannaməsi ortaq tariximizə əsaslanmaqla yanaşı, müasir reallıqları əks etdirir, eləcə də Azərbaycan ilə Türkiyə arasında mövcud və gələcək işbirliyinin strateji istiqamətlərini müəyyənləşdirir. Bəyannamədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşməsinə, regional inteqrasiyaya və təhlükəsizliyə xidmət edir, eyni zamanda, Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.

Qürurverici haldır ki, Azərbaycan və Türkiyə dünya miqyasında mənəvi-siyasi cəhətdən bir-birinə ən yaxın ölkələrdir. Bizi birləşdirən bir çox amil vardır: tarix, mədəniyyət, etnik köklər, dil, din, milli dəyərlər, milli maraqlar və xalqlarımızın qardaşlığı. Bütün bunlar bizim sarsılmaz birliyimizi təmin edir. Bu gün Azərbaycan və Türkiyə ortaq siyasi iradə və birgə fəaliyyətlə gələcək hədəflərə çatmaq əzmində olan nadir müttəfiqlik nümunəsidirlər.

Məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, iki ölkə arasındakı möhkəm həmrəylik Türk dünyasında əlaqələrin inkişafı baxımından da önəmlidir. Bu, yeni dünya nizamının yarandığı şəraitdə türk dövlətlərinin dövrün çağırışlarına cavab verməklə milli-strateji hədəflərə çatması üçün zəmin və fürsət yaradır, türkdilli ölkələrin qarşısında yeni perspektivlər açır.

Əminəm ki, xalqlarımızın sarsılmaz etimadını qazanmış Yeni Azərbaycan Partiyasının və Ədalət və İnkişaf Partiyasının təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda müttəfiqliyimizin daha da gücləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparılacaq, faydalı təkliflər irəli sürüləcəkdir. Həmçinin ümidvaram ki, konfrans Türk dünyasında həmrəyliyin, dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi işinə də öz layiqli töhfəsini verəcəkdir.

Sizi bir daha ürəkdən salamlayır və fəaliyyətinizdə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyun 2022-ci il

*Reportaj*

# Sabahlara bu Zəfərin işığından baxırıq!



Bu fikir Azərbaycan Ordusuna ad edildiyinə görə könüləyatımlı fikirdi. Bu mahiyyətli, bu gözəl fikrin səmavi işığını ana, Vətən, Ana Vətən deyənlərin düşüncələrinin işığı bilmişik. Xalqın adından deyildiyinə görə, xalq üçün, dövlət üçün, dövlətçilik üçün deyildiyinə görə. Bu işıq Vətən müharibəsindən əvvəl səngərlərə aparan yolların işığı olub. İnam kimi çatıb səngərlərə. Əsgərlər bu inamı xalqın inamı bilib. Onda "Sabahlara bu Zəfərin işığından baxırıq!" - deyənlərə Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu deyib ki, səngərləri sərhədlərə köçürəcəyik! Əsgərlər Vətənin əsgərləriydi, xalq - bu qətiyyətin. Bu qətiyyət də gücünü xalqdan alırdı. Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərin yolgöstərəni ruhun səngərlərdə deyilən, səngərlərdən dikələn "Sabahlara bu Zəfərin işığından baxırıq!" coşqusu olacaqdı. Vətən müharibəsində bu kəlmələr Vətən naminə daha qürurla, daha dönməzliklə deyildi. 2020-ci il sentyabrın 27-də - Vətən müharibəsi başlayanda da, noyabrın 8-də - Zəfər günündə də...

Səhər yelinin ağacların budaqlarına sarıldığına fikir verməmişik. Kəlmələr, kəlmələrin ifadə etdiyi fikirlər təlim ərəfəsində əsgərlərə könül xoşluğu verir. Əsgərlərin öyrənmək istəyini duyuruq. Əsgərlərin istəyinin mahiyyəti döyüş hazırlığını yüksəltməkdi. Döyüş hazırlığının yüksəldilməsi ordu quruculuğunun başlıca istiqamətlərindən olduğu üçün bu istək hərbi xidmətin mahiyyəti kimi yaşanılır. Vətən müharibəsindən sonra döyüşlər haqqında - müharibə haqqında söhbətlərimiz zaman anlamında dünənləri bu gün də yaşadan bir fikirlə tamamlanır: Zəfərin tarix yaratdı, Azərbaycan əsgəri! Onda bizə elə gəlir ki, Vətən müharibəsində xalq döyüşüb, xalq qalib gəlib...

Öyrənmişik ki, bu hərbi hissənin artilleriyaçıları ordu miqyaslı yarışda ikinci yerə layiq görülüblər. Yaxşı nəticədir. Bu nəticənin yarışdan sonrakı təlimlərin hazırlığına da, təlimlərin gedişinə də mənəvi stimul olacağına komandanlıq da inanır, biz də inanırıq; təlimdən azca əvvəl çavuş Musa Eyvazov demişdi: Hər yaxşı nəticə məsuliyyətin yüksəldilməsi deməkdir. Qazandığımız nəticəni daha da yaxşı nəticəyə çatdıracağıq. Buna şərait də var, istək də...

Məxsusi hazırlanmış sahədə keçirilən təlim-tədris prosesi başlayır. "Hazırlanmış atəş mövqeyinin tutulması" dərsinin bir mərhələsi icra olunur. Baş leytenant Emil Bayramov top heyətinə zəruri göstərişlər verir. Əsgərlər əmrləri nəzəri baxımdan düzgün, təcrübi baxımdan səlis yerinə yetirirlər. Mayor Mahir Qurbanov deyir ki, bu dərslər təlim formatında keçirilir və mahiyyət baxımından top heyətinin döyüş hazırlığının yüksəlməsində əhəmiyyətli olur. Divizionun yüksək döyüş hazırlığı hərbi hissənin yüksək döyüş hazırlığı deməkdir, hərbi hissələrin yüksək döyüş hazırlığı - ordunun. Diviziomumuzun timsalında tam əminliklə deyə bilərəm ki, ordumuz güclü ordudur...

Baş leytenant Emil Bayramov top heyətinə mövzunu elan edir, bəzi nəzəri bilikləri xatırladır, mövzunu Vətən müharibəsinin nümunəsinə istinadən şərh edir:

- Vətən müharibəsindən əvvəl əsgərlər təlimlərdə indi icra edəcəyiniz təmrinləri dəqiq yerinə yetirməyi öyrənmişdilər. Bu öyrənmə döyüş hazırlığı idi. Azərbaycan əsgəri malik olduğu döyüş hazırlığı ilə Vətən müharibəsində Ali Baş Komandanın döyüş əmrini Zəfərlə tamamladı. Siz Zəfərin əsgərlərinin davamçılarısınız. Siz də döyüş hazırlığınızı təlimlərlə möhkəmləndirirsiniz.

(Ardı 6-cı səhifədə)

# Müdafiə naziri “Dəniz təməl komando kursu”nun növbəti buraxılış mərasimində iştirak edib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda şəxsi heyətin hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov 15 İyun - Milli Qurtuluş Günündə Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində keçirilən "Dəniz təməl komando kursu"nun növbəti buraxılış mərasimində iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə müdafiə naziri və şəxsi heyət hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzərək xatirə və ehtiramlarını nümayiş etdiriblər.



Xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində çıxış edən nazir şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsində bu kimi kursların əhəmiyyətini xüsusi vurğulayıb, Milli Qurtuluş Günü münasibətilə məzunları və bütün şəxsi heyəti təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb. General-polkovnik Zakir Həsənov çıxışında Türkiyə Silahlı Qüvvələrinin modeli nəzərə alınmaqla Azərbaycan Ordusunda aparılan islahatlar nəticəsində müsbət istiqamətdə baş verən dəyişikliklərdən danışıb.

Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun bütün hərbi qulluqçuları kimi, dəniz piyadalarının da şücaətini xüsusi vurğulayan nazir hərbçilərimizin qəhrəmanlıqlarının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

Türkiyəli peşəkar təlimatçıların da cəlb olunduğu kursun yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə müdafiə naziri türkiyəli zabitlərə və bütün heyətə təşəkkürünü bildirib.

Sonra kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub və məzunlara sertifikatlar təqdim edilib. Kursda fərqlənən hərbi qulluqçular və təlimatçılar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Müdafiə naziri dəniz piyadalarının istifadəsində olan silah və texniki vasitələrdən ibarət sərgiyə baxış keçirib.

Sonda hərbi hissənin ərazisindəki təlim poliqonunda sualtı hücum və sualtı müdafiə bölmələrinin dalğıclarının nümunəvi çıxışları nümayiş etdirilib.



# Azərbaycan ilə Litva arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası və Litva Respublikası Müdafiə nazirliklərinin nümayəndə heyətləri arasında ikitərəfli əməkdaşlıq danışıqları üzrə görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə ölkələrimiz arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

# Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iyunun 17-si gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun dövlət sərhədinin Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Bakıda “Dəniz kuboku” beynəlxalq müsabiqəsinin planlaşdırma konfransı keçirilib



İyunun 16-da Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında təşkil olunacaq "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin planlaşdırma konfransı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan, Rusiya, Qazaxıstan və İran nümayəndə heyətlərinin iştirak etdiyi konfransda "Dəniz kuboku" müsabiqəsinə hazırlıqla bağlı məsələlər və görüləcək işlər müzakirə olunub. Sonra müsabiqənin keçiriləcəyi təlim-tədris kompleksinə baxış keçirilib.

Qeyd edək ki, "Dəniz kuboku" müsabiqəsinin cari ilin avqust ayında keçirilməsi planlaşdırılır.

# Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyinin kursantlarının 50-ci buraxılış mərasimi keçirilib





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iyunun 15-də Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyinin kursantlarının 2022-ci il üzrə təntənəli buraxılışına həsr olunan mərasim keçirilib.*

50-ci buraxılış mərasimi münasibətilə keçirilən tədbirdə Milli Müdafiə Universitetinin rəhbərliyi, liseyin şəxsi heyəti və rəhbərliyi, müəllimlər, məzunlar, valideynlər, Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin, ictimaiyyətin və KİV-in nümayəndələri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Hərbi orkestrin müşayiəti ilə şəxsi heyət Azərbaycanın Dövlət Himnini ifa etdikdən sonra, liseyin Döyüş bayrağı təntənəli surətdə meydana gətirilib.

Milli Müdafiə Universitetinin rektoru vəzifəsini icra edən professor, general-leytenant Heydər Piriyev çıxış edərək məzunları əlamətdar gün münasibətilə müdafiə nazirinin, universitetin kollektivi və öz adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Qeyd edilib ki, 1971-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan C.Naxçıvanski adına Hərbi Liseyin Silahlı Qüvvələrimiz üçün zabit kadrlarının hazırlanmasında xüsusi rolu var. O, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusuna, eləcə də Hərbi liseyin məzunlarına diqqət və qayğı göstərdiyini nəzərə çatdırıb. Vurğulayıb ki, iyunun 15-i təkcə dövlətçiliyimizin xilası deyil, həm də Azərbaycanın sabahını müəyyənləşdirən tarixdir.

Liseyin müəllimi Sevil Qurbanova məzunlara uğurlar diləyərək onlara Vətənə layiqli zabit olmağı arzulayıb. Bildirilib ki, builki məzunlardan Xəyyam Məmmədov keçirilən liseydaxili qiymətləndirmədən, eləcə də tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarından yüksək nəticə (284,6 bal) topladığı üçün tam orta təhsil haqqında fərqlənmə attestatını alması üçün sənədləri Təhsil Nazirliyinə təqdim olunub.



Kursantlar adından çıxış edən Xəyyam Məmmədov onlara göstərilən etimadı doğruldacaqlarına, orduya dəyərli zabit olacaqlarına, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərinə, hərbçi şərəfini hər zaman uca tutacaqlarına söz verib.

Liseyin tədrisdə və intizamda fərqlənən kursantlarına attestat və liseyin döş nişanı təqdim olunduqdan sonra yaş kötüyünə məzun rəmzi vurulub.

Sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Döyüş bayrağının təhvili və qəbulu mərasimi keçirilib. Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Sonda hərbi orkestrin müşayiəti ilə kursantlar lisey marşını ifa etdikdən sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

# "Hərbi Nəşriyyat"ın yaranmasından 28 il keçir

Müdafiə Nazirliyinin "Hərbi Nəşriyyat"ının fəaliyyətə başlanmasından 28 il ötür.

1994-cü ildə müasir ordu quruculuğunun ideoloji sahələrindən biri "Hərbi Nəşriyyat" sovet ordu hissələrinə məxsus Xəzər Hərbi Donanmasının orqanı və rus dilində nəşr edilən "Xəzərin keşiyində" qəzetinin köhnə mətbəəsinin bazasında yaradıldı - Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Hərbi Nəşriyyat" kimi fəaliyyətə başladı.

Mətbəənin çap maşınları, avadanlıqları köhnəlmiş, istismar müddətini başa vurmuş və aşınmış vəziyyətdə idi. İnzibati binası yox dərəcəsində olan nəşriyyatın redaksiya heyətinə köhnə mətbəənin təmirsiz, dar, işıqsız bir otağı verildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir ordu quruculuğunda aparılan geniş işlər digər xidmət sahələrində olduğu kimi, "Hərbi Nəşriyyat"ın da fəaliyyət imkanlarının nizama salınmasına təkan verdi, səmərəli işin təşkilində mühüm addımlar atıldı.

Nəşriyyatın 28 illik fəaliyyəti dövründə Silahlı Qüvvələrin Ümumqoşun nizamnamələri, hərbi təhsil müəssisələri üçün nəzərdə tutulan dərs vəsaitləri, hərbi, elmi və çox zəruri ədəbiyyatlar çap olundu. Zaman keçdikcə "Hərbi Nəşriyyat"ın maddi-texniki bazası gücləndirilərək daha müasir avadanlıqlarla təchiz edildi. 2009-cu ildə nəşriyyat yeni istifadəyə verilmiş binaya köçürülərək, işin keyfiyyətini, səmərəliliyini və operativliyini artıran, poliqrafik cəhətdən yüksək səviyyədə olan ən müasir çap avadanlıqları ilə təmin olundu.



"Hərbi Nəşriyyat" hüququ bazasını Azərbaycan Respublikası nəşriyyat işinin və kütləvi informasiya vasitələrinin qanunverici bazası ilə tənzimləyir və eyni zamanda, müdafiə nazirinin Azərbaycan Ordusunda nəşriyyatın fəaliyyətinin təşkili və tənzimlənməsi üzrə əmr, qərar, sərəncamlarına uyğun qururaq, xidməti nəşrlərin, dərslik və dərs vəsaitlərinin çap olunub, ordumuzun şəxsi heyətinə çatdırılması üçün mümkün olan bütün vasitələrdən istifadə edir.

Bu gün Azərbaycan Ordusunun şəxsi heyətini zəruri dərs vəsaitləri və xidməti ədəbiyyatlarla təmin edən "Hərbi Nəşriyyat"ın kollektivi işlərinə peşəkarlıqla, layiqincə, vicdanla yanaşaraq, tapşırıqları ən yüksək səviyyədə yerinə yetirməyə çalışır, hərbi istehsalata öz böyük töhfələrini verir. Ordumuzun şəxsi heyətinin döyüş, mənəvi-psixoloji, fiziki hazırlıqlarının artırılması və maarifləndirilməsi istiqamətində zəruri ədəbiyyatlarla, əyani təbliğat vasitələri ilə təmin olunmasında və bu işlərin operativ şəkildə, səmərəli, yüksək poliqrafik səviyyədə görülməsində kollektiv böyük əmək sərf edir.

Aprel döyüşləri zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında xalqa müraciəti "Hərbi Nəşriyyat"da operativ şəkildə çap olunaraq təcili surətdə döyüş bölgələrinə göndərildi.

44 günlük Vətən müharibəsində - Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatlarında "Hərbi Nəşriyyat" da şərəfli xidmət yolu keçərək, ordumuzun qələbəsinə öz töhfəsini verdi. Döyüş əməliyyatları aparılan istiqamətlərdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının və ruh yüksəkliyinin daha da artırılmasında mühüm vasitələrdən biri olan səyyar mətbəələrin qurulması və gündəlik fəaliyyətinin təşkili, "Sən qalib gələcəksən", "Qələbə uğrunda", "Qalibiyyət döyüşü" səhra qəzetlərinin və təbliğat-təşviqat məqsədilə hazırlanan bukletlərin, broşürlərin, bayraq fonu üzərində "Biz Zəfər Çalacağıq", "Qarabağ Azərbaycandır!" "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu" şüarlarının, "İrəli", "Şimşək" döyüş vərəqələrinin çap olunması, onların ön cəbhədəki əsgər və zabitlərə çatdırılması nəşriyyatın Vətən müharibəsində keçdiyi xidmət yolunun şərəfli tarixidir. Nəşriyyatın əməliyyatlar zamanı döyüş bölgələrinə ezam olunan hərbi qulluqçuları mayor Siyasət Qasımov, leytenant Yasin Nəbiyev, gizirlər Elvin Abbasov, Adəm Ağayev, Kamal Məmmədov vəzifələrini layiqincə yerinə yetirərək yüksək peşəkarlıq nümunələri göstərdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə mayor S.Qasımov "Hərbi xidmətlərə görə", dövlət başçısının adından Müdafiə nazirinin əmri ilə gizirlər E.Abbasov, A.Ağayev, K.Məmmədov "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medala layiq görülüblər.

"Hərbi Nəşriyyat"ın yaranmasının 28-ci ildönümü münasibətilə kollektivi, şəxsi heyəti səmimi qəlbdən təbrik edir, onlara xidmətlərində və işlərində uğurlar arzulayırıq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# “Milli Qurtuluşdan Zəfərə doğru!” adlı vətənpərvərlik tədbirləri ongünlüyünə start verilib





*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə və 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunan "Milli Qurtuluşdan Zəfərə doğru!" adlı vətənpərvərlik tədbirləri ongünlüyünə start verilib.*

İlk tədbir Bakının Qaradağ rayonunun Puta qəsəbəsində yerləşən Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində təşkil olunub.

Müdafiə Nazirliyi və Qaradağ rayon İcra hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Milli Məclisin, Müdafiə Nazirliyinin, Qaradağ Rayon İcra hakimiyyətinin rəsmiləri, şəhid ailələrinin üzvləri, qazilər, hərbi dənizçilər, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, qeyri-hökumət təşkilatlarının, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Hərbi Dəniz Qüvvələrinin qərargahı qarşısında ucaldılan xalqımızın ümummilli lideri Heydər Əliyevin əzəmətli abidəsi ziyarət olunaraq önünə qızılgül çələngləri və gül dəstələri qoyulub.

Ulu Öndərin və respublikamızın suverenliyinin, ərazi bütövlüyünün qorunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Vətən müharibəsinin Zəfər bayrağı hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında təntənə ilə gətirilib. İştirakçılar Zəfər bayrağına təzim edərək alqışlarla qarşılayıblar. Vətənpərvərlik tədbiri aylığı çərçivəsində ilk tədbirə ev sahibliyi edən Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov tədbir iştirakçılarını salamlayaraq deyib: "Bu gün ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası ilə Azərbaycan hakimiyyətinə qayıdışının ildönümüdür. Azərbaycanın iqtisadi, siyasi, mədəni yüksəlişinə qədəm qoyduğu, ölkəmizin ordu quruculuğunda yeni bir mərhələnin başlandığı gündür, ordu ilə xalqın monolit birliyinin bayramıdır. Nə qədər Azərbaycan var, nə qədər Azərbaycan xalqı var, qalib Vətən əsgəri var, Ulu Öndərimiz ürəklərdə, xatirələrdə əbədi yaşayacaq və onun müqəddəs ruhu bizi daha nurlu, parlaq gələcəyə aparacaq".



Hərbi Dəniz Qüvvələrinin komandanı böyük qürur hissi ilə bildirib ki, Ulu Öndərin özü qədər inandığı, gələcəyinə böyük ümidlər bəslədiyi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə doğma Azərbaycanımızın şan-şöhrəti bütün dünyaya yayılır. Möhtəşəm layihələr reallaşır. Ölkəmizin müdafiə qüdrəti günü-gündən daha da möhkəmlənir. Hər bir azərbaycanlı qalib dövlətin vətəndaşı, qalib ordunun əsgəri olması ilə fəxr edir. Azərbaycanın dinamik sürətlə inkişafı, işğaldan azad edilən yaşayış məntəqələrinin yenidən qurulması, tikinti-abadlıq işlərinin böyük vüsət alması, Şuşada beynəlxalq tədbirlərin, festivalların təşkili dünyanı heyrətə gətirir. Hətta düşmənlərimiz belə etiraf edirlər ki, Azərbaycan dövləti güclü dövlət, Azərbaycan xalqı xoşbəxt xalq, Azərbaycan Ordusu isə dünyanın ən güclü ordularından biridir.

Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov çıxış edərək deyib: "Hər il ölkəmizdə neçə-neçə əlamətdar hadisənin ildönümünü və tarixi günü təntənə ilə qeyd edirik. Lakin 15 İyun - Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir bayramdır. Bu şanlı tarixin memarı xatirəsini həmişə ehtiramla yad etdiyimiz Azərbaycan müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmləndirilməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqımıza Müzəffər Ali Baş Komandan, qurucu Prezident İlham Əliyev kimi görkəmli şəxsiyyəti bəxş edən ümummilli lider Heydər Əliyevdir. İcra başçısı keçən əsrin doxsanıncı illərinin əvvəllərini xatırlayaraq vurğulayıb: "1991-ci ilin oktyabr ayında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq buna baxmayaraq, ölkədə yaranan gərgin vəziyyət dövlətimizin müstəqilliyini təhlükə altında qoyurdu. Ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlərin Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planını tam gücü ilə işə salmışdı. Həmin dövrdə əhalinin böyük təbəqəsini əhatə edən vətənpərvər insanlar yaranmış ağır, mürəkkəb vəziyyətdən çıxış yolunu Naxçıvan Ali Məclisinin sədri, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdilər. 1993-cü il iyun ayının 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat cütlüyü həm xalqımızın tələbini, həm də özlərinin acınacaqlı aqibətlərini nəzərə alaraq, Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qalırlar".

İcra başçısı qeyd edib ki, Azərbaycan parlamentinin 1993-cü il iyunun 15-də keçirilən iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilir və bu hadisə xalqımızın tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olur. Ulu öndər Heydər Əliyev Ali Sovetin sədri, sonralar isə Azərbaycan Respublikasının Prezidenti olarkən müstəqil dövlət quruculuğu yolunda uzaqgörən və qətiyyətli siyasət apararaq xalqı vətəndaş müharibəsi təhlükəsindən, dövləti isə çevriliş cəhdlərindən xilas edir. Milli Qurtuluş Günündən daha parlaq gələcəyə, möhtəşəm Zəfərə doğru gedən yolumuzun bünövrəsi məhz həmin günlərdə qoyulur.





Vətənpərvərlik tədbirində ulu öndər Heydər Əliyevin həmin günlərdə dediyi qətiyyətli fikirlər səsləndirilib: "Mən Azərbaycan Respublikasının bu çətin günündə bu ağır yükü üzərimə ona görə götürmüşəm ki, öz doğma bacı və qardaşlarıma, öz doğma Vətənimə, doğma vətəndaşlarıma, doğma torpağıma xidmət edim.

**(Ardı 5-ci səhifədə)**

# "Milli Qurtuluşdan Zəfərə doğru!" adlı vətənpərvərlik tədbirləri ongünlüyünə start verilib



(Əvvəli 4-cü səhifədə)

Həyatımın son dəqiqəsinə qədər mən bu xidməti edəcəyəm və heç bir şey məni qorxutmur. Heç bir şey də məni bu yoldan çəkindirməyəcək. Mən bütün bu təxribatların, terrorların qabağında durmuşam və duracağam. Azərbaycanın müstəqilliyini qorumuşam və qoruyacağam. Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir, Azərbaycan mənim həyatımdır!".

Tədbir iştirakçılarına məlumat verilib ki, Qaradağ rayonu ərazi baxımından Bakının yarısı qədərdir. Ən böyük sənaye mərkəzlərindən biri olan rayon ölkəmizin sənaye potensialının inkişafında böyük rol oynayır: "Rayonun hansı bir guşəsinə getsəniz, orada Ulu Öndərin izinə rast gələcəksiniz. Ulu Öndər dəfələrlə rayonda olub, neçə-neçə möhtəşəm layihənin bünövrəsini qoyub, rayon sakinləri ilə görüşüb. Dahi rəhbərimiz əbəs yerə deməyib ki, Qaradağ rayonunun Azərbaycan xəritəsində, Azərbaycan iqtisadiyyatında, Azərbaycanın həyatında özünəməxsus yeri vardır. Qaradağlılar 1995-ci ildə ilk dəfə indiki Prezidentimiz İlham Əliyevə etimad göstərərək, onu Milli Məclisə deputat seçiblər. O isə seçicilərinin etimadını həmişə doğruldub. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün bütün regionlarda olduğu kimi, Qaradağ rayonunun inkişafına da böyük diqqət göstərir. Qaradağlılar Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etməkdən böyük qürur duyurlar", - deyə S.Mikayılov bildirib.

Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ müharibəsində - Vətən müharibəsində də qaradağlıların həm ön cəbhədə, həm də arxa cəbhədə qələbə naminə səylərini əsirgəmədiklərini barədə danışan icra başçısı diqqətə çatdırıb ki, igid oğullarımız 44 günlük Vətən müharibəsində əsl qəhrəmanlıq, şücaət göstəriblər. Qaradağ rayonundan olan neçə-neçə gənc döyüş meydanlarında şəhadətləri ilə tarix yazaraq əbədiyyətə qovuşublar. Onlarla döyüşçü müharibədən qazi kimi qayıdıb. Bu gün yüzlərlə qaradağlı gənc Silahlı Qüvvələrdə Hərbi anda sadiq qalaraq Vətən qarşısında əsgəri borclarını şərəflə yerinə yetirirlər. Hər bir Qaradağ sakini Müzəffər Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır.

Dahi liderimiz Heydər Əliyevin 50 il öncə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməsi olan altı qardaşdan biri - Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov tədbir iştirakçılarına rəhbərliyin təbriklərini çatdırıb.

Vətən üçün, ordumuz üçün vətənpərvər, igid oğullar tərbiyə etdiklərinə görə şəhid və əsgər valideynlərinə minnətdarlıq edib, qazilərimizə şəfalar diləyib, ordumuza dəstəyi olan hər kəsə təşəkkür edib.





General-mayor E.Xəlilov vətənpərvərlik tədbirləri aylığı çərçivəsində keçirilən ilk tədbiri ordu ilə xalqın birliyinin təcəssümü kimi dəyərləndirib və ulu öndər Heydər Əliyevin bu gün də aktual olan bir sıra fikirlərini tədbir iştirakçılarına bir daha xatırladıb: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüdrətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir".

Çıxışlardan sonra "Milli Qurtuluşdan Zəfərə doğru!" adlı kinolaşdırılmış ədəbi-bədii-xoreoqrafik kompozisiya nümayiş etdirilib. Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi əməkdaşlarının hazırladıqları videosüjetlər və incəsənət xadimlərinin ifa etdikləri vətənpərvərlik mahnıları, hərbi marşlar və rəqslərlə ulu öndər Heydər Əliyevin 29 il öncə hakimiyyətə qayıdışından başlayaraq, xalqımızın və ordumuzun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan möhtəşəm qələbəyədək olan dövr xronoloji ardıcıllıqla təqdim olunub.



Tədbirdə şəhid ailələrinə və Vətən müharibəsinin qazilərinə, xidmətdə fərqlənən hərbi qulluqçulara Müdafiə Nazirliyi və Qaradağ rayon İcra Hakimiyyətinin rəhbərliyi adından xatirə hədiyyələri verilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qaradağ rayon şöbəsi tərəfindən xidmətə çağırılaraq bu gün ruhumuzun paytaxtı Şuşa şəhərində Vətənə sədaqətlə xidmət edən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından bir qrupunun Cıdır düzündən tədbir iştirakçılarına, valideynlərinə videomüraciəti və onları böyük sevgi ilə izləyən valideynlərinə həmin əsgərlərin nümunəvi xidmətlərinə görə mükafat olaraq məzuniyyətə gəlməsinin xəbər verilməsi ata-analarla, nənələrlə görüşləri tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

Azərbaycan Ordusuna göstərdikləri mənəvi dəstəyə, şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəldilməsindəki xidmətlərə görə Qaradağ rayon İcra Hakimiyyətinin rəhbərliyinə, Xalq artisti Mübariz Tağıyevə, ictimai fəal Əliş Hüseynova Müdafiə Nazirliyinin mükafatları təqdim olunub. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-Təşkilat Məsələləri şöbəsinin 1-ci ərazi sektorunun müdiri Tağı Tağıyev tədbir iştirakçılarını 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edib və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Layihənin müəllifi Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bildirib ki, vətənpərvərlik tədbirləri ongünlüyü çərçivəsində respublikanın ayrı-ayrı rayonlarında, eləcə də işğaldan azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrdə silsilə tədbirlər həyata keçiriləcək.



Müdafiə Nazirliyi və Qaradağ rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən vətənpərvərlik tədbirindən iştirakçılar xoş təəssüratlarla ayrılıblar.

"Azərbaycan Ordusu"

## Müdafiə Təhsilinin Genişlənməsi Proqramı çərçivəsində işçi görüşləri keçirilib



NATO-nun Müdafiə Təhsilinin Genişlənməsi Proqramı (DEEP) çərçivəsində proqramın Azərbaycan üzrə koordinatorları və NATO-nun müxtəlif təhsil üzrə ekspertləri ilə Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetində işçi görüşü keçirilib.

Görüş zamanı hərbi təhsil sisteminin və əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, bu sahədə qazanılan təcrübə üzrə brifinqlər təqdim olunub.

Sonra qonaqlar proqrama uyğun olaraq Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitut və Tibb Universitetinin Hərbi Tibb Fakültəsində olublar. Burada onlara tədris prosesi barədə ətraflı məlumat verilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

## “Anadolu Qartalı-2022” beynəlxalq təliminə hazırlıq brifinqi təqdim olunub



Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada müxtəlif ölkələrin hərbi qulluqçularının iştirakı ilə təşkil olunan "Anadolu Qartalı-2022" beynəlxalq taktiki-uçuş təliminə hazırlıq məqsədilə brifinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə iştirakçılara təlimin planlaşdırılması və keçiriləcəyi ərazi, ona hazırlıq prosesi, həmçinin mərhələlər üzrə icra olunacaq tapşırıqlar barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, beynəlxalq təlimdə ölkəmizi Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları və aviasiya vasitələri təmsil edəcəklər.

# Sabahlara bu Zəfərin işığından baxırıq!

**(Əvvəli 1-ci səhifədə)**

- Düşmənin mövqelərinə atılan hər mərmi ordumuzu qələbəyə yaxınlaşdırırdı, - baş leytenant Emil Bayramov sözə qüvvət kimi belə deyir.

Top heyətinə döyüş tapşırığı verilib. Heyət əmri mərhələlərlə, təlimata müvafiq yerinə yetirir. Top döyüş hazırlığı vəziyyətinə gətirilir. Əmrə uyğun zəruri hesablamalar aparılır. Atışın dəqiqliyi bu hesablamalardan asılıdır. Dəqiq yerinə yetirilən hesablama atışın dəqiqliyi deməkdir. Hesablama başa çatır. Heyət topu şərti hədəfə tuşlayır...

Təmrinlər peşəkarlıqla yerinə yetirilir. Diqqət yetiririk ki, müddət və prosesin təlimata müvafiq icra edilməsi zabitin könlünə yatır.

Təlim öyrənmə prosesidir. Əsgərlərin nəzəri bilikləri təlimlərdə təkmilləşir. Döyüş hazırlığı planına müvafiq olaraq yerinə yetirilən təlimlərdə top heyətinin səriştəsi formalaşdırılır, heyət üzvlərinin yerinə yetirdiyi hərəkətlərin bir-birini tamamlaması vərdişləri təkmilləşdirilir. Bu baxımdan təlimi döyüş hazırlığının vacib mərhələsi adlandıra bilərik.

Mayor Mahir Qurbanov deyir ki, top heyətinə hərbi xidmətin ilk vaxtlarında müəyyən riyazi hesablama vərdişləri də aşılanır. Bu vərdişləri, hesablama metodlarını mənimsəyən əsgərlərin təcrübi bilikləri belə təlimlərlə möhkəmləndirilir. Qürurla deyə bilərik ki, bu top Vətən müharibəsində düşmənin neçə-neçə mövqeyini, onlarla döyüş texnikasını, yüzlərlə canlı qüvvəsini məhv edib. Top heyəti bu topa həm də bu səbəbdən duyğusallıqla qulluq edir. Qürurla o da top heyətinə baxır, biz də. Bu xarakteri Hərbi anda sədaqətin təzahürü bilirik...

- Mənə elə gəlir ki, bu heyət Vətən müharibəsində iştirak etsəydi, bu atış düşmənin koordinatları verilmiş mövqeyini darmadağın edərdi, - deyirəm. Həm də əminliklə deyirəm. Əsgərlərin baxışlarının səmimiyyətiylə əhatələnirik. Top heyətinin komandiri kiçik çavuş Musa Eyvazov zabitlərin Vətən müharibəsindən döyüş təəssüratlarını, döyüşləri,



döyüşlərdə artilleriyaçılarımızın yüksək döyüş hazırlığını xatırlayır.

- Komandirimiz deyir: Cəbrayıl istiqamətində şiddətli döyüşlər gedirdi. Düşmən ciddi müqavimət göstərirdi. Komandirin əmri ilə döyüşənlərimizə artilleriya atəşi dəstəyi verirdik. Qəflətən bizə başqa istiqamətdə atış aparmaq əmri verildi. Rabitəçinin səsində titrəyiş duyulurdu. Koordinatları verilən mövqe döyüşlərin gedişinə ciddi təsir göstərirmiş. Əmrə əsasən həmin mövqeyə üç mərmi atdıq. Az sonra öyrəndik ki, atışımız dəqiq olub. Dedikləriniz mənə komandirimizin dediyi həmin atışı xatırlatdı.

Zabit Vətən müharibəsində artilleriyanın rolundan danışır. Xatırlayırıq ki, Vətən müharibəsində oktyabrın ilk günlərində döyüşçülərin əhatəsindəydik. Artilleriyaçılar döyüş əmrini dəqiqliklə yerinə yetirmişdilər - düşmənin gücləndirilmiş mövqeyi darmadağın edilmişdi, piyadalarımızın hücumunun qarşısından bir ciddi maneə aradan qaldırılmışdı. O sərin payız axşamında divizion komandirinin baxışlarında qürur görmüşdük, sevgi görmüşdük, Vətənin adından deyiləsi təşəkkür görmüşdük; düşmənin çoxlu sayda döyüş texnikası, hərbi sursatı məhv edilmişdi. "Vətən müharibəsində yaşadığım o qüruru bugünkü qürurun başlanğıcı bilmək günah deyil ki?" - soruşuram. Zabitlər də, top heyəti də razılıqla (və minnətdarlıqla) gülümsünürlər...

Mayor Mahir Qurbanov deyir ki, Füzuli istiqamətində gedən döyüşlərin birində topçularımızın atdığı mərmi düşmənin hərəkətə başlama ərəfəsində olan tankının üstünə düşmüşdü. Digər tanklar da döyüşçülərimizin hücumunun qarşısına çıxa bilməmişdi. Həmin döyüşdə iştirak edən əsgərlərimiz həm bu döyüş haqqında, həm də digər döyüşlər haqqında əsgər yoldaşlarına danışmışdılar. Onlar da hərbi xidmətə sonra gələn əsgərlərə danışırdılar. Yəni, divizionun, divizionun timsalında hərbi hissənin döyüş yolu yaddaşlarda belə yaşadılır. Heyət nəfəri əsgər Orxan Hüseynli deyir ki, biz belə döyüş yolu keçmiş divizionda xidmətdən qürur duyuruq. Baş leytenant Habil Hüseynzadə bu topa döyüşçü top deyir. Bu top Vətən müharibəsində düşmənin nə qədər döyüş texnikasını, canlı qüvvəsini məhv edib!

Top heyəti bu faktı təlimlərin döyüş hazırlığının hansı səviyyədə formalaşdığının təsdiqi kimi dinləyirlər. "Görəsən, əsgərlər indi, bu anlarda Vətən müharibəsində iştirak edə bilmədiklərinə görə təəssüflənirlərmi?" - düşünürəm. Kimsəyə ünvanlanmayan suala kimsənin eşidə bilməyəcəyi səviyyədə özüm cavab verirəm: Əlbəttə!..

Zabitin xatırlamasını həm fakt kimi, həm də faktı ümumiləşdirən mahiyyət kimi hərbi hissədə nəzəri biliklərlə, təcrübi vərdişlərlə bir sırada Vətən müharibəsinin təcrübəsinin də aşılandığının zəmanəti bilirik. Etibarlı zəmanətdir...

Heyət nəfəri Rəfail Bəkirov əsgər yoldaşlarının təlimlərdə həmişə məsuliyyətlə iştirak etməsindən, bu və ya digər tapşırığın yerinə yetirilmə metodunu zabitlərdən həvəslə öyrənməsindən, öyrənilənlərin vaxtaşırı təkrarlanmasından danışır. Səsində qürur da var, sevgi də. Bu qürur hərbi xidmətə görədi, bu sevgi artilleriya ixtisasına görədi, artilleriyaçı əsgər yoldaşlarına görədi. Bu qüruru biz də hiss etmişik, zabitlər də hiss edib.

Mayor Mahir Qurbanov əsgərlərin artilleriyaçı kimi formalaşmasında həvəsin, marağın, son iki ildə Vətən müharibəsində qazanılan Zəfərin əhəmiyyətli olduğunu bildirir:

- Hərbi xidmətə başlayan əsgərin topla hər təması marağını da artırır, peşəsinə olan sevgisini də. Vətən müharibəsində artilleriyaçılar döyüş əmrlərini yüksək səviyyədə yerinə yetirirdi. Onların davamçıları olan bu əsgərlər artilleriyaçı ixtisaslarını sevgilərlə öyrənirlər. Onlar da istənilən döyüş əmrini yüksək dəqiqliklə yerinə yetirməyə qadirdirlər.

- Bu divizionun da şəxsi heyətinin yüksək döyüş hazırlığını yüksək mənəvi-psixoloji hazırlıq tamamlayır. Vətən müharibəsində hərbi hissəmiz Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətlərində gedən döyüşlərə artilleriya dəstəyi verirdi. O döyüşlər həm tarix oldu, həm də təcrübə. Əsgərlərimiz asudə vaxtlarda Vətən müharibəsinin iştirakçısı olmuş hərbi qulluqçuların xatirələrini tarix kimi dinləyirlər. Belə söhbətlərin mahiyyəti mənəvi kamilləşmə prosesidir, - mayor Faiq Mehdiyevin dediklərini bir gerçəkliyin ifadəsi bilirik - Vətən müharibəsində qazanılan Zəfərin özü də, döyüşlərin təcrübəsi də indi ordu quruculuğunun tərkib hissələrindəndir.

Mayor Faiq Mehdiyev divizionlarda təlimlərin, dərslərin yarışdan sonra daha məsuliyyətlə təşkilindən, əsgərlərin öyrəndiklərini daha məsuliyyətlə təkmilləşdirdiklərindən də danışır. Əmin oluruq ki, bu hərbi hissədə də təlimlərə ordu quruculuğunun mühüm tərkib hissəsi kimi xüsusi diqqət yetirilir.

Zabitlər deyirlər ki, əsgərlərlə söhbətlərdə Vətən müharibəsinə kimi Aprel döyüşlərindən danışırdıq, 2020-ci ilin 8 noyabrından sonra Vətən müharibəsindən danışırıq. Belə söhbətlərin mahiyyəti tarixi zəfəri yaşatma missiyasıdır, əsgərlərin Vətən sevgisinə söykənən mənəvi-psixoloji hazırlığını həm də belə söhbətlərlə yüksəldirik. Əsgərlər Vətən müharibəsi haqqında öyrəndiklərini tariximiz bilirlər...

"Hazırlanmış atəş mövqeyinin tutulması" dərsini maraqla izlədik, fasilədə əsgərlərlə səmimi söhbətləşmişik.

Gün günorta yerindədi. Təlim davam edir. Top heyəti təmrinləri ayrılıqda, sonra ardıcıllıqla bir daha yerinə yetirir. Zabitlər təlimin gedişindən razı qalır - top heyətindən üzülməyən baxışlarda qürur görünür. Bu baxışların da mahiyyətində "Sabahlara bu Zəfərin işığından baxırıq!" qürurunun qətiyyəti var. Bu qürur Vətənə sədaqətin qürurudu, bu qətiyyət ordumuza inamın qətiyyətidi...

Hərbi hissənin atış poliqonunda seyrək ağacların arasından sıyrılan yellər də bu qətiyyətin əminliyini yaxınlara, uzaqlara yetirəcək!..

**Rəşid HÜSEYNOV**
**Əməkdar jurnalist**

# Azərbaycan Ordusunda Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib



*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib. Plana əsasən, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib. Onlara Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər nümayiş etdirilib, konfranslar, müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.*

Müdafiə Nazirliyinin rəhbərliyi və Azərbaycan Ordusunun şəxsi heyətinin iştirak etdiyi tədbirlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, çıxış edənlər Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə həyata keçirilən işlərdən və onun siyasi kursunun bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, Vətən müharibəsində qazanılan şanlı qələbənin tarixi əhəmiyyətindən danışıblar.

Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblı, həmçinin incəsənət xadimlərinin iştirakı ilə rəngarəng konsert proqramları təqdim edilib.





* * *

Azərbaycan Hərb Tarixi Muzeyində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş tariximizi öyrənək və öyrədək" adlı təntənəli tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin zabit və əsgər heyəti, veteran təşkilatlarının, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.

Tədbiri açıq elan edən Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edərək 15 iyunun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmasından, 1991-ci ilin oktyabrında müstəqillik əldə edən Azərbaycanda özbaşınalıq, anarxiya hökm sürməsindən, orduda vahid komandanlığın olmamasından, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzünün respublikada vəziyyəti gərginləşdirməsindən danışaraq bildirdi ki, belə ağır bir dövrdə Azərbaycan dövlətini və xalqını düşdüyü vəziyyətdən xilas edə bilən və onun müstəqilliyini qoruyacaq bir xilaskar lazım idi. "Xalqın təkidli tələbi ilə Bakıya gələn ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu...".

Muzey rəisi qeyd etdi ki, Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasəti, idarəetmə qabiliyyəti, qətiyyəti və ən əsası uzaqgörənliyi böhrana son qoydu. Xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi qarşıdurmalardan, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı.

Muzeyin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılovun "Heydər Əliyev və beynəlxalq güclərin Azərbaycandakı maraqları" adlı çıxışında vurğuladı ki, ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. "Respublikamızda qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələr məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilib...".

Tədbir Milli Qurtuluş Gününə həsr olunmuş sənədli filmin nümayişi, Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında vətənpərvərliyi tərənnüm edən mahnı və şeirlərin səsləndirilməsi ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**





15 İyun - Milli Qurtuluş Günü münasibətilə Goradil Hərbi Sanatoriyasında tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, hərbi sanatoriyanın kollektivi və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Tədbirdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan üçün etdiyi əvəzsiz xidmətləri barəsində çıxışlar səsləndirildi.

Hərbi sanatoriyanın rəisi polkovnik Elçin Abdullayev çıxışında bildirdi ki, gündən-günə inkişaf edən Azərbaycanın adı dahi şəxsiyyət Heydər Əliyevin misilsiz xidmətləriylə sıx şəkildə bağlıdır. "1991-ci ilin oktyabrında Azərbaycan müstəqil olduqdan sonra ölkə daxilində siyasi böhran yarandı. Daxildə olan hakimiyyət hərisliyi, xaoslar, qanunsuz silahlı dəstələrin özbaşınalığı Azərbaycanı parçalanmağa doğru aparırdı. Xalqın təkidli tələbiylə Bakıya, hakimiyyətə qayıdan Ulu Öndər iyunun 15-də Ali Sovetin sədri seçilir, Azərbaycanı böyük bəladan xilas edir, yaranmış böhranları aradan qaldırır. Görülən bu tədbirlər heç də asan başa gəlməmişdir. Hal-hazırda torpaqlarımızda azad, müstəqil və dinc şəkildə yaşayırıqsa, bu, Ulu Öndərin xidmətlərinin nəticəsidir".

Daha sonra çıxış edən zabitlər Kamil Cəlilov, Pərviz Məmmədov, Azər Abbasəliyev qeyd etdilər ki, ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın dünya miqyasında tanınmasında əvəzsiz işlər görmüşdür. Buna ən yaxşı nümunə olaraq 2020-ci ilin 27 sentyabrında başlayıb Zəfərlə sonlanan Vətən müharibəsini göstərə bilərik. 30 ilə yaxın həsrətini çəkdiyimiz torpaqları rəşadətli Azərbaycan Ordusu tərəfindən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğaldan azad etdi.

Tədbirin sonunda xatirə şəkilləri çəkdirildi.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Şəhid zabitin xatirəsinə həsr olunan anım mərasimi keçirildi





*Vətən müharibəsi şəhidi, Azərbaycan Bayrağı ordenli leytenant Elvin Şükürlünün anadan olmasının 25-ci ildönümü ilə əlaqədar məzunu olduğu Cəmşid Naxçıvanski adına Hərbi Liseydə anım mərasimi keçirildi. Müdafiə Nazirliyinin hərbi qulluqçularının, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyinin, müəllim və kursant heyətinin, Xətai rayon İcra Hakimiyyətinin nümayəndələrinin, şəhidin ailə üzvlərinin, yaxın qohumların, döyüş yoldaşlarının, bir qrup şəhid ailəsinin, veteranların və başqa qonaqların iştirak etdikləri mərasim İkinci Şəhidlər xiyabanında şəhidin məzarının ziyarəti ilə başladı. Şəhidin məzarı önünə əklillər qoyaraq, tər qərənfillər düzüldü. Şəhidin ruhuna dualar oxundu.*

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə gerçəkləşən anım mərasimini polkovnik Müslim Nəsirov açıq elan etdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Polkovnik M.Nəsirov çıxışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə başlayan 44 günlük Vətən müharibəsində Hərbi liseyin şəxsi heyətinin fəal iştirakından və şəhid olan neçə-neçə lisey məzunlarının, o cümlədən Azərbaycan Bayrağı ordenli Elvin Şükürlünün keçdiyi şərəfli döyüş yolundan geniş bəhs etdi. "Azərbaycan oğullarının torpaqlarımızın azadlığı uğrunda göstərdikləri misilsiz qəhrəmanlıq və fədakarlıq nümunələri qürur tariximiz kimi yaddaşlarda yaşayacaq. Biz Hərbi liseyin zabit, müəllim, kursant heyəti qəhrəman şəhid məzunlarımızı hər zaman yad edirik. Onların şərəfli döyüş yolunu gələcək nəsillərə ötürmək üçün əlimizdən gələni edirik. Bu gün kursantlarımızın əyləşdiyi bu sıralarda o igid oğullar da vaxtilə kursant kimi əyləşiblər. Leytenant Elvin Şükürlü ön xətt bölmələrində xidmət etmişdir. O, Vətən müharibəsində Murovdağ - Kəlbəcər istiqamətində düşmən postlarının alınmasında və darmadağın edilməsində şəxsi igidlik və şücaət göstərmişdir. Şəhid leytenant Elvin Şükürlünün qardaşı baş leytenant Elnur Şükürlü də nümunəvi bir zabit kimi bu liseydə xidmət edir. Anası Vəfa xanım da liseydə işləyir, kursantlarımıza öz övladı kimi qayğı göstərir."

Anım mərasimində Hərbi liseyin zabiti mayor Orxan Ağasoy və kursant Adil Ələkbərov çıxış edərək, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeninə, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medallarına layiq görülən şəhidin şərəfli döyüş yolundan danışdılar. Sonra tədbir iştirakçılarına şəhidin xatirəsinə həsr edilən videoçarx nümayiş olundu.

Şəhid leytenant Elvin Şükürlünün valideynləri Azad Şükürlü və Vəfa xanım çıxış edərək bildirdilər ki, torpaqlarımızın azadlığı uğrunda şəhid olan Elvin kimi vətənsevər, igid oğullarımızın xatirəsi daima qəlblərdə yaşayacaq, onların qısa, lakin şərəfli ömür yolları gələcək nəsillərə nümunə olacaq.

Şəhidin valideynləri çıxışlarında onlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

Tədbirdə o da qeyd olundu ki, Xətai rayon ərazisində yerləşən küçələrin birinə Vətən müharibəsi şəhidi leytenant Elvin Şükürlünün adı verilib.

Xatirə mərasimi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin vətənpərvərliyi tərənnüm edən konsert proqramı ilə sona çatdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Hərbi vətənpərvərlik işinin səmərəli təşkili məqsədilə müxtəlif bölgələrdə tədbirlər keçirilib

*Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi ilə Azərbaycan Respublikasının Gənclər Fondunun birgə təşkil etdiyi tədbirlər çərçivəsində Bakı şəhərində və müxtəlif bölgələrdə yerləşən orta məktəblərdə şagirdlərlə görüşlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, hərbi xidmətə hazırlanması və milli-mənəvi dəyərlərin qorunub saxlanılması mövzularında məktəblilərlə söhbətlər aparılıb, onlara şəhidlərimizin həyat və döyüş yolu haqqında ətraflı məlumat verilib.

# İdman

## Raman Saley dünya çempionatında ikinci qızıl medalını qazanıb



Azərbaycan Milli Paralimpiya Komitəsinin üzgüçülük idman növü üzrə milli komandanın üzvü, Tokio XVI Yay Paralimpiya Oyunlarının 3 qat qalibi Raman Saley Portuqaliyanın Madeyra şəhərində keçirilən paraüzgüçülük üzrə dünya çempionatının qızıl medalını qazanıb.

O, 100 metr məsafəyə sərbəst üzmə növündə 53.07 saniyəlik nəticə göstərib. Bununla da, millimizin dünya çempionatında qazandığı medalların sayı 5-ə çatıb.

Bundan əvvəl keçirilmiş yarışlarda R.Saley 1 qızıl, 2 gümüş, digər təmsilçimiz Vəli İsrafilov isə 1 qızıl medal qazanıb.

## Qadın güləşçimiz Ruzanna Məmmədova Avropa çempionatının qalibi olub



Rumıniyanın paytaxtı Buxarestdə güləş üzrə U-17 Avropa çempionatı davam edir.

Yarışın 3-cü günündə qadın güləşi üzrə mübarizəyə start verilib. A qrupunda yer alan Elvina Kərimzadə ilk görüşdə ukraynalı Anastasiya Polskaya məğlub olsa da, bolqar Azra Azisova Mustafovaya və rumıniyalı Elvira Draqana tam üstünlüklə qalib gəlib. Qrup ikincisi kimi yarımfinala yüksələn güləşçimiz bu mərhələdə alman Jozefin Vrenşdən də güclü olub - 4:0. Həlledici görüşdə yenidən Polskayla üz-üzə gələn Elvina rəqibinə yenə məğlub olaraq gümüş medalla kifayətlənib.

Ruzanna Məmmədova (49 kq) ispan Kandela Giraldes Markeslə rumıniyalı Ana Mariya Rotaruya "tuşe" ilə qalib gələrək yarımfinala çıxıb. Türkiyəli Şevval Çayırı 8:5 hesabıyla üstələyən təmsilçimiz finala vəsiqə qazanıb. Ruzanna son qarşılaşmada italiyalı Fabiana Rinellanı "tuşe" ilə məğlub edərək Avropa çempionu olub.

## Azərbaycan gimnastı Avropa çempionatında bürünc medal qazanıb



İsrailin Təl-Əviv şəhərində bədii gimnastika üzrə Avropa çempionatı davam edir. İsrailin ikinci dəfə ev sahibliyi etdiyi qitə çempionatında 39 ölkədən 286 gimnast (91 nəfər böyüklər, 83 nəfər gənclər, 19 qrup hərəkətləri komandası) mübarizə aparır.

Yarışın ikinci günü gənclər arasında qüvvəsini sınayan yığma komandamızın üzvü Kamila Qafarovanın bürünc medalı ilə yadda qalıb. Gürzələrlə yarışda hakimlərdən 28,850 xal alan idmançımız inamlı çıxışı ilə fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb. İdmançımız halqa ilə hərəkətlərin icrasına görə 6-cı (29.050 xal) olub.

Həlledici mərhələdə gimnastımız Alina Məmmədova da topla hərəkətlərin icrasında 6-cı pillədə (29.050 xal) qərarlaşıb. Komandamızın digər üzvü Mədinə Dəmirova lentlə hərəkətlərin icrasına görə (26.250 xal) 7-ci olub.

Avropa çempionatı, həmçinin dünya çempionatına təsnifat xarakteri daşıyır.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Əzizov Elşən Musa oğluna məxsus AD № 005262 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № **361**
Sifariş № **695**
Nüsxə **4673**